New Baku Post

# ALİM VİCDANI, ŞÖHRƏT VƏ TALESİZLİK

02. 06. 2012

**Hamlet İsaxanlı**

Dünyanın qarışıq dövründə alim və ya sənət adamı nə etməlidir? Hansı dəyərləri qorumalı, nəyi qurban verməlidir? Universal cavab yoxdur.
Çin tarixinin və tarixşünaslığın atası **Sima Qian** (təqribən b.e.ə. 145 - b.e.ə. 90) məşhur "Şici" ("Böyük tarixçinin yazıları") əsəri ilə Çində yeni növ tarixyazmanın əsasını qoydu. (Çin yazısının latın yazısına çevrilməsi qaydasına –***pinyinə*** görə bu tarixçinin adı Sima Qian, bəzən də Ssu-ma Ch`ien şəklində yazılır və təqribən Sıma Tsian kimi oxunur). Əsər imperatorlar, hökmdarlar, sərkərdələr, kübarlar, bürokratlar və filosofların həyat hekayələri (bioqrafiyaları) şəklində yazılıb. Əfsanəvi dövrlərdən müəllifin öz zamanına qədər Çin və onun qonşuları tarixinə aid bu əsər siyasi və hərbi tarix, sülalələr, mühəndislik, astronomiya, iqtisadiyyat, musiqi və din, təqvim, mərasimlər, çaylar və s. məsələlərdən, o cümlədən sadə insanlardan bəhs edir. Gözəl dil və üslubla yazılmış "Şici" Çində tarix, dil, ümumi və bioqrafik ədəbiyyat üzrə örnək sayıldı, "tarixçinin yazdığı ən mükəmməl mahnı" adlandırıldı.
Sıma Qian obyektiv tarixyazmadan söhbət açır, sənədlərdən "ancaq etibarlı olanı saxladım, şübhəliləri kənara atdım" deyir. Onun fikrincə, Confucious keçmişdən yazanda obyektiv və kritik olur, lakin öz dövrünü şərh edəndə açıq və dəqiq deyil, ehtiyatlıdır, üstüörtülü dillə yazır.
Atası Sıma Tan böyük Çin (Han) imperatoru Vu-di`nin sarayında kitabxana və təqvim işinə baxırdı. O, istedadına inandığı oğluna "tarixyazma işini davam et" - deyə, vəsiyyət etmişdi. Sima Qian İmperatorun müşaviri oldu. O, bir neçə alimlə birlikdə yeni Çin təqvimini hazırladı.
"Şici"də türklərin əcdadı sayılan hunnuların (Asiya hunlarının) tarixi və həyatı da obyektiv və hörmətlə təsvir edilmiş, Hunnu dövlətinin Çin qədər qədim olduğu göstərilmişdi. Sima Qian çinlilərlə hunnular arasında danışıq və sülh tərəfdarı idi.
B.e.ə. 99-cu ildə Çin sərkərdəsi Li Ling hunnular əleyhinə yürüşdə böyük uğursuzluğa düçar olmuş və hunnular tərəfə keçmişdi (Hunnu hökmdarının müşaviri olmuş, qızı ilə evlənmişdi). Çin imperatoru uğursuzluğu birbaşa Li Linglə əlaqələndirəndə Li Lingi müdafiə edən tək adam Sima Qian oldu. Qəzəblənən imperator Sima Qian`ı ölümə məhkum etdi. Qaydaya görə, ölüm hökmü pul ödəmək və ya axtalanmaqla əvəz oluna bilərdi. Pulu olmayan və köməksiz qalan Sima Qian axtalandı, ardınca 3 il həbsə atıldı. Şərəfini qorumaq üçün onun özünə qəsd edəcəyi gözlənilirdi. Lakin o, azad olandan sonra sarayda xədim kimi çalışdı. Bir dostuna yazdığı məktubda kübar insan kimi niyə ölümü seçmədiyini izah edir: "Özümə qəsd etsəm, bunu prinsipə görə deyil, günahım olduğuna görə etdim - deyə şərh edəcəkdilər. Üstəlik, atama söz vermişdim - başladığım böyük tarix əsərini sona çatdırmalı idim. Xədim kimi işləməyi də buna görə etdim. Xədimi adam saymırlar, bu tək indi deyil, həmişə belə olub və belə olacaq. Mən haqqımı yalnız öləndən sonra, yazdığım tarix dünyada tanındıqdan sonra alacağıma ümid edə bilərəm".